**Hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən güc və odlu silahın tətbiq edilməsinə dair Əsas prinsiplər**

*27 avqust – 07 sentyabr 1990-cı il tarixlərində Kubanın paytaxtı Havana şəhərində keçirilmiş Cinayətkarlığın qarşısının alınması və cinayətkarlarla rəftar üzrə Birləşmiş Millətlər Təşkilatının Səkkizinci Konqresi tərəfindən 07 sentyabr 1990-cı ildə qəbul edilmişdir.*

Hüquq-mühafizə orqanları əməkdaşlarının işinin böyük əhəmiyyət kəsb edən sosial xidmət olduğunu və bununla da, bu əməkdaşların iş şəraitini və statusunu təmin etmək və zəruri olduqda təkmilləşdirmək ehtiyacının mövcud olduğunu nəzərə alaraq,

Hüquq-mühafizə orqanları əməkdaşlarının həyatı və təhlükəsizliyinə yönəlmiş bir təhlükənin, bütövlükdə cəmiyyətin sabitliyinə yönəlmiş bir təhlükə kimi qiymətləndirilməli olduğunu nəzərə alaraq,

Hüquq mühafizə orqanları əməkdaşlarının Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təmin olunan, eləcə də Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktda təsdiqlənən yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququnun qorunmasında mühüm rolunu nəzərə alaraq,

Məhbuslarla Rəftarın Minimal Standart Qaydalarında həbsxana məmurlarının hansı hallarda güc tətbiq edə bilməsinin müəyyən edildiyini nəzərə alaraq;

Hüquq-mühafizə orqanları əməkdaşlarının Davranış Məcəlləsinin 3-cü maddəsində hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən yalnız ciddi zərurət hallarında və onların xidməti vəzifələrinin icrası üçün tələb olunan dərəcədə güc tətbiq edilə bilməsinin müəyyən olunduğunu nəzərə alaraq,

İtaliyanın Varenna şəhərində keçirilmiş Cinayətkarlığın Qarşısının Alınması və Cinayətkarlarla Rəftar üzrə Birləşmiş Millətlər Təşkilatının Yeddinci Konqresinin hazırlıq görüşündə hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən güc və odlu silah tətbiqinin məhdudlaşdırılması üzrə növbəti mərhələdə müzakirə olunmalı elementlər barədə razılıq əldə edildiyini nəzərə alaraq,

Yeddinci Konqresin 14 saylı qətnaməsində, hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən güc və odlu silah tətbiqinin insan hüquqlarına lazımi hörmətlə mütənasib qaydada həyata keçirilməli olduğunun xüsusilə qeyd edildiyini nəzərə alaraq,

1986-cı il 21 may tarixli 1986/10 saylı qətnaməsinin IX bölməsində İqtisadi və Sosial Şuranın üzv dövlətləri hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən güc və odlu silah tətbiqi qaydalarının tətbiqinə xüsusi diqqət yetirmələrinə çağırdığını, həmçinin 1986-

cı il 04 dekabr tarixli 41/149 saylı qətnaməsində Baş Assambleyanın şuranın bu tövsiyəsini dəstəklədiyini nəzərə alaraq,

Hüquq-mühafizə orqanları əməkdaşlarının şəxsi toxunulmazlığına lazımi ehtiram nümayiş etdirərək ədalət mühakiməsinin həyata keçirilməsində, yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququnun müdafiəsində onların roluna, ictimai asayişin və sosial sülhün təmin edilməsi üzrə onların məsuliyyətinə, habelə onların kvalifikasiyalarının, peşə hazırlığının və davranışının vacibliyinə diqqət yetirilməsini nəzərə alaraq,

Üzv dövlətlərə hüquq-mühafizə orqanları əməkdaşlarının müvafiq rolunu təmin və təşviq etmək məsələlərində kömək etmək üçün tərtib edilmiş aşağıda göstərilən əsas prinsiplərə hökümətlər tərəfindən riayət edilməli və onların milli qanunvericilikləri və təcrübələri çərçivəsində nəzərə alınmalı və hüquq-mühafizə orqanları əməkdaşlarının, habelə hakimlərin, prokurorların, vəkillərin, icra və qanunvericilik orqanlarının üzvləri kimi digər şəxslərin və geniş ictimaiyyətin diqqətinə çatdırılmalıdır.

## Ümumi müddəalar

1. Hökumətlər və hüquq-mühafizə orqanları, hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən güc və odlu silahın şəxslərə qarşı tətbiq edilməsi barədə qaydaları və təlimatları qəbul və tətbiq etməlidirlər. Hökumətlər və hüquq-mühafizə orqanları güc və odlu silah tətbiqi ilə bağlı etik məsələləri daim nəzarət altında saxlayırlar.

2. Hökumətlər və hüquq-mühafizə orqanları güc və odlu silahın fərqləndirilmiş tətbiqinə imkan yaratmaq üçün vasitələrin mümkün qədər geniş müxtəlifliyini inkişaf etdirir və hüquq-mühafizə orqanlarının əməkdaşlarını silah və sursatların müxtəlif növləri ilə təchiz edirlər. Bunlar şəxslərə ölüm və ya xəsarət yetirə biləcək vasitələrin tətbiqini məhdudlaşdırmaq məqsədilə müvafiq şəraitdə öldürücü olmayan zərərsizləşdirici silahın olmasını da ehtiva edir. Eyni məqsədlərlə, hər hansı növ silahın tətbiqində ehtiyacı azaltmaq məqsədilə hüquq-mühafizə orqanlarının əməkdaşlarına qalxan, dəbilqə, zirehli jiletlər və zirehli nəqliyyat vasitələri kimi özünümüdafiə vasitələri ilə təmin edilmək imkanı yaradılır.

3. Kənar şəxslərə xəsarət yetirilməsi təhlükəsini azaltmaq məqsədilə öldürücü olmayan silahın yaradılması və istifadəyə qəbul edilməsi diqqətlə qiymətləndirilməli və belə silahın tətbiqi üzərində ciddi nəzarət həyata keçirilməlidir.

4. Hüquq-mühafizə orqanlarının əməkdaşları öz vəzifələrini yerinə yetirərkən, mümkün olduqda, güc və odlu silahın tətbiqindən əvvəl qeyri-zorakı vasitələrdən istifadə etməlidirlər. Onlar yalnız digər vasitələr səmərəsiz olduqda, yaxud qoyulan məqsədə nail olmaq perspektivləri olmadıqda güc və odlu silahı tətbiq edə bilərlər.

5. Güc və odlu silahın qanuni tətbiqi qaçılmaz olduğu hər bir halda hüquq-mühafizə orqanlarının əməkdaşları:

(a) Belə tətbiq zamanı təmkinli olmalı və cinayətin ictimai təhlükəlilik dərəcəsinə və əldə edilməli olan qanuni məqsədə mütənasib surətdə hərəkət etməli;

(b) Ziyan və xəsarəti minimuma endirməli, həmçinin insan həyatına hörmət etməli və onu qorumalı;

(c) Xəsarət almış hər bir şəxsə mümkün qədər tez müddətdə köməyin və tibbi yardımın göstərilməsini təmin etməli;

(d) Xəsarət almış şəxsin qohumlarının və ya yaxın dostlarının mümkün qədər tez müddətdə xəbərdar edilməsini təmin etməlidir.

6. Hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən güc və odlu silahın tətbiqinin xəsarət, yaxud ölümlə nəticələnməsi halında onlar 22-ci prinsipə müvafiq olaraq öz rəislərinə dərhal məruzə etməlidirlər.

7. Hökumətlər hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən özbaşına, yaxud sui-istifadə etməklə güc və odlu silahın tətbiqinin öz qanunlarına əsasən cinayət kimi cəzalandırılmasını təmin etməlidirlər.

8. Daxili siyasi qeyri-sabitlik, yaxud digər fövqəladə vəziyyət kimi müstəsna hallar bu prinsiplərin kənarlaşdırılması üçün bəraət qazandıra bilməz.

## Xüsusi müddəalar

9. Ölüm və ya ağır xəsarət təhlükəsindən özünü müdafiə, yaxud başqalarının müdafiəsi üçün, insan həyatına bilavasitə ölüm və ya ağır xəsarət təhlükəsi ilə bağlı, xüsusilə ağır cinayətin törədilməsinin qarşısını almaq, belə təhlükəni yaradan və onların səlahiyyətlərinə müqavimət göstərən şəxsi həbs etmək, yaxud onun qaçışının qarşısını almaq məqsədilə və yalnız bu məqsədlərə nail olmaq üçün daha az qəti tədbirlər kifayət olmadığı hallar istisna edilməklə, hüquq-mühafizə orqanlarının əməkdaşları şəxslərə qarşı odlu silah tətbiq edə bilməzlər. Hər bir halda, yalnız insan həyatını müdafiə etmək üçün çıxılmaz vəziyyət yarandıqda odlu silahdan öldürücü məqsədlə istifadə edilə bilər.

10. 9-cu prinsipdə nəzərdə tutulmuş hallarda hüquq-mühafizə orqanlarının əməkdaşları özlərini təqdim etməli və odlu silahın tətbiqi barədə aydın xəbərdarlıq edərək belə xəbərdarlığa tabe olmaq üçün vaxtın verilməsi hüquq-mühafizə orqanlarının əməkdaşlarını təhlükə altında qoyduğu, yaxud digər şəxslər üçün ölüm və ya ağır xəsarət

təhlükəsi yaratdığı, yaxud hadisənin şəraitində tam uyğun və ya məqsədəmüvafiq olmadığı hallar istisna edilməklə vaxt verməlidirlər.

11. Hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən odlu silahın tətbiq edilməsi barədə qayda və təlimatlar aşağıda göstərilən prinsipləri ehtiva edir:

(a) Hüquq-mühafizə orqanlarının əməkdaşlarına odlu silahın gəzdirilməsi səlahiyyətinin verilməsi hallarının müəyyən edilməsi və icazə verilmiş silah və sursat növlərinin qeyd edilməsi;

(b) Odlu silahın yalnız müvafiq hallarda və həddindən artıq ziyan dəymə təhlükəsini ən aşağı dərəcəyə endirmək üçün tətbiqinin təmin edilməsi;

(c) Ağır xəsarət yetirən və ya əsassız risk mənbəyini yaradan odlu silah və sursatın istifadəsinin qadağan edilməsi;

(d) Hüquq-mühafizə orqanları əməkdaşlarının onlara verilmiş odlu silah və sursatlara görə cavabdeh olmalarını təmin etmək üçün prosedurlar daxil olmaqla, odlu silah üzrə nəzarətin, onun saxlanılmasının və verilməsinin tənzimlənməsi;

(e) Müvafiq hallarda odlu silahın tətbiqindən əvvəl verilən xəbərdarlıqların müəyyən edilməsi;

(f) Hüquq-mühafizə orqanlarının əməkdaşları vəzifələrini yerinə yetirərkən odlu silahı tətbiq etdikləri bütün hallara dair hesabat sisteminin nəzərdə tutulması.

## Qanunsuz yığıncaqlar zamanı qaydanın mühafizəsi

12. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktda təsbit edilmiş prinsiplərə müvafiq olaraq, hər kəsin qanuni və dinc yığıncaqlarda iştirak etməyinə yol verilməsini nəzərə alaraq hökumətlər və hüquq-mühafizə orqanları və əməkdaşları etiraf edirlər ki, güc və odlu silah yalnız 13 və 14-cü prinsiplərə uyğun tətbiq edilə bilər.

13. Qanunsuz, lakin qeyri-zorakı yığıncaqların qarşısını alarkən hüquq-mühafizə orqanlarının əməkdaşları fiziki güc tətbiq etməkdən çəkinməli yaxud bu, qaçılmaz olduğu halda, güc tətbiqini zəruri olan minimum həddə qədər məhdudlaşdırmalıdırlar.

14. Zorakı yığıncaqların dağıdılmasında hüquq-mühafizə orqanlarının əməkdaşları yalnız daha az təhlükəli vasitələr mümkün olmadıqda və yalnız zəruri olan ən aşağı dərəcədə

odlu silah tətbiq edə bilərlər. 9-cu prinsipdə qeyd olunmuş şərtlər istisna olmaqla, belə hallarda hüquq-mühafizə orqanlarının əməkdaşları odlu silah tətbiq edə bilməzlər.

## Həbsxana və ya təcridxanada saxlanılan şəxslərin mühafizəsi

15. Təsisatda təhlükəsizliyin və qaydanın təmin edilməsi üçün qəti zəruri olduğu, yaxud şəxsi təhlükəsizliyə təhlükə yarandığı hallar istisna edilməklə, hüquq-mühafizə orqanlarının əməkdaşları həbsxana və ya təcridxanada saxlanılan şəxslərə münasibətdə güc tətbiq etmirlər.

16. Ölüm və ya ağır xəsarət təhlükəsindən özünümüdafiə, yaxud başqalarının müdafiəsi məqsədilə, yaxud həbsxana və ya təcridxanada saxlanılan, 9-cu prinsipdə göstərilmiş təhlükəni yaradan şəxsin qaçışının qarşısını almaq üçün qəti zərurət halları istisna edilməklə, hüquq-mühafizə orqanlarının əməkdaşları həbsxana və təcridxanada saxlanılan şəxslərə münasibətdə odlu silah tətbiq etmirlər.

17. Yuxarıda göstərilən prinsiplər həbsxana əməkdaşlarının məhbuslarla rəftarın Minimal Standart Qaydalarında, xüsusilə 33, 34 və 54-cü qaydalarda müəyyən edilmiş hüquqlar, vəzifələr və məsuliyyətlərinə xələl gətirmədən tətbiq olunur.

## Peşə hazırlığı, təlim və məsləhətvermə

18. Hökumətlər və hüquq-mühafizə orqanları bütün hüquq-mühafizə orqanları əməkdaşlarının düzgün yoxlama prosedurları ilə seçilməsini, öz funksiyalarını səmərəli həyata keçirmək üçün onların müvafiq mənəvi, psixoloji və fiziki hazırlığının olmasını, həmçinin davamlı və hərtərəfli peşə təlimi almalarını təmin edirlər. Onların həmin funksiyaları yerinə yetirmək üçün yararlılığı mütəmadi nəzarət altında olmalıdır.

19. Hökumətlər və hüquq-mühafizə orqanları bütün hüquq-mühafizə orqanlarının əməkdaşlarının güc tətbiqi üzrə müvafiq təlim keçmələrini və yoxlanılmalarını təmin edirlər. Odlu silah gəzdirilməsi tələb olunan hüquq-mühafizə orqanlarının əməkdaşlarına bunun üçün yalnız onlara silah tətbiqi üzrə xüsusi təlim keçdikdən sonra səlahiyyət verilir.

20. Hüquq-mühafizə orqanları əməkdaşlarının təlimi zamanı hökumətlər və hüquq-mühafizə orqanları polis etikası və insan hüquqları (xüsusilə araşdırma prosesində) məsələlərinə, güc və odlu silahın tətbiqinin məhdudlaşdırılması məqsədilə güc və odlu silahın tətbiqinə dair alternativlərə, o cümlədən mübahisələrin dinc yolla həll edilməsinə, kütlənin davranışını və inandırma üsullarının dərk edilməsinə, danışıq və vasitəçilik üsullarına, habelə texniki vasitələrə xüsusi diqqət yetirirlər. Hüquq-mühafizə orqanları

müəyyən hadisələrlə əlaqədar öz təlim proqramlarını və əməliyyat prosedurlarını yenidən nəzərdən keçirməlidirlər.

21. Hökumətlər və hüquq-mühafizə orqanları güc və odlu silah tətbiqi ilə bağlı vəziyyətlərdə iştirak edən əməkdaşlar üçün stres yükünü aradan qaldırmaq üçün məsləhətverməni əlçatan etməlidirlər.

## Hesabat və yoxlama prosedurları

22. Hökumətlər və hüquq-mühafizə orqanları 6 və 11-ci (f) prinsiplərdə göstərilmiş bütün hadisələr ilə əlaqədar səmərəli hesabat və yoxlama prosedurları yaradırlar. Həmin prinsiplərə uyğun məruzə edilmiş hadisələrə əsasən hökumətlər və hüquq-mühafizə orqanları səmərəli yoxlama prosesinin mümkünlüyünü və müvafiq hallarda müstəqil inzibati, yaxud prokurorluq orqanları tərəfindən yurisdiksiyalarını həyata keçirmək imkanlarını təmin edirlər. Ölüm, ağır xəsarət və ya digər ağır nəticələr olduğu hallarda, inzibati yoxlama və məhkəmə nəzarətinə görə məsuliyyət daşıyan səlahiyyətli orqanlara dərhal ətraflı hesabat göndərilir.

23. Güc və odlu silah tətbiqi nəticəsində təsirə məruz qalmış şəxslər, yaxud onların qanuni nümayəndələri müstəqil prosesə, o cümlədən məhkəmə prosesinə buraxılır. Həmin şəxslərin ölümü halında bu müddəa müvafiq olaraq onların öhdəsində olanlara tətbiq olunur.

24. Hökumətlər və hüquq-mühafizə orqanları təmin edirlər ki, yuxarı vəzifəli şəxlər, onların tabeçiliyində olan hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən güc və odlu silahın qanunsuz tətbiq edilməsi barəsində bildiyi, yaxud bilməli olduğu, lakin belə tətbiqin qarşısını almaq, saxlamaq və ya bu barədə məruzə etmək üçün səlahiyyətləri çərçivəsində bütün tədbirləri görmədiyi hallarda məsuliyyət daşıyırlar.

25. Hökumətlər və hüquq-mühafizə orqanları təmin edirlər ki, güc və odlu silah tətbiq etmək barəsində əmri Hüquq Mühafizə Orqanları Əməkdaşlarının Davranış Kodeksi və bu prinsiplərə uyğun olaraq yerinə yetirməmiş, yaxud digər əməkdaş tərəfindən belə tətbiq haqqında məlumat vermiş hüquq-mühafizə orqanlarının əməkdaşlarına heç bir cinayət və ya intizam cəzası təyin edilmir.

26. Şəxsin ölümü və ya ağır xəsarət alması ilə nəticələnən fiziki güc və odlu silahın tətbiqi barədə əmrin açıq-aşkar qanunsuz olduğunu bildikləri və onu yerinə yetirməkdən imtina etmək üçün real imkana malik olduqları halda, hüquq-mühafizə orqanlarının əməkdaşlarının rəhbərlərinin əmrlərinə tabe olması onlara bəraət qazandırmır. Hər bir halda, məsuliyyət həmçinin bu qanunsuz əmrləri verən rəhbərlərin də üzərinə düşür.